# HƏMİŞƏ AXTARIŞDA

1967-ci ilin 13 iyulunda, gözəl isti yay günündə Qəbələ rayonunda Beydulla kişinin evində bir oğlan uşağı dünyaya göz açdı. Bu, yazımda qeyd edəcəyim Arzu Abdullayev idi.

Günlər ayları, aylar illəri əvəz etdi. Arzu boya-başa çatdı. O, 10 yaşından həyatın cəzbedici, ecazkar gözəlliklərinin vurğunu oldu. Arzu musiqini sevdi. Qarmon çalmağın həvəsinə düşdü. 1977-ci ildə sənədlərini rayon incəsənət məktəbinin qarmon şöbəsinə verərək, sənət yoluna addımlarını atdı. 1982-ci ildə həmin məktəbi bitirdi. O vaxtdan da Arzunu nəinki rayonda, qonşu rayonlarda, hətta başqa respublikalarda da gözəl qarmonçalan kimi tanıdılar. Arzunun ilhamlı çalğısı həyatın gözəlliklərindən bəhs edir, onun barmaqları qarmonun şirmayi düymələrinə toxunduqca adamın ağrı-acısını unutdurur, qəlbini cuşa gətirir. O, muğamlarımızı, oyun havalarımızı, ritmik rəqslərimizi bir-birindən ayırmır, eyni məhəbbətlə ifa edir.

Arzu Abdullayev 1985-ci ildən 1987-ci ilə qədər hərbi xidmətdə olmuş, hərbi xidmətini başa vurduqdan sonra yenidən sənətinə qayıtmışdır.

O, 1988-ci ildə "Tale" estrada ansamblının yaradılması təklifini verir və ansamblı təşkil edir. Ansamblda cəmi iki il fəaliyyət göstərir. Sonradan isə müxtəlif ansambllarda çıxış etməyə başlayır. 1993-1995-ci illər ərzində orta Asiya dövlətlərində (Türkmənistan, Özbəkistan), Rusiyanın 30-dan çox şəhərlərində qastrol səfərlərində olmuşdur. Bu sənət onu Sakit okean sularına qədər aparmışdır. Qastrol səfərlərindən qayıtdıqdan sonra, yenidən yaradıcılığını davam etdirmişdir. El şənliklərində, rayonun mədəni tədbirlərində iştirak etməsilə bərabər, o, gecə-gündüz yeni ansambl yaratmaq haqqında fikirləşirdi.

Nəhayət o, bu fikirlə bir gün rayon mədəniyyət evinin bədii rəhbəri Vüqar Səlimovla məsləhətləşir. Uzun məsləhətləşmələrdən sonra razılığa gəlirlər. Ansambla yeni gənc musiqiçilər dəvət olunur və




ciddi məşqlər başlanır. Məşqlər çox çətinliklərlə başa gəlirdi. Qışda soyuq otaq şəraitində məşq etməyə məcbur olurdular. Nəhayət, bir il yarım məşqdən sonra 1998-ci ildə Qəbələ rayon mədəniyyət evi nəzdində Vüqar Səlimovun rəhbərliyi ilə bu gün hər yerdə məşhur olan "Çinar" ansamblının təməli qoyuldu. Ansamblın tərkibinə daha yeni-yeni müğənnilər dəvət olunur. Ansamblın repertuarına muğamlar, təsniflər, xalq mahnıları, romanslar, bəstəkarların mahnıları, rəqslər daxil edilir. "Çinar" ansamblı dəfələrlə qastrollarda, bayram tədbirlərində, toy şənliklərində yüksək səviyyədə çıxışlar etmişdir. Ansambl bu gün də öz populyarlığını qoruyub saxlayır.

Bütün qəbələlilər onun qarmon ifaçılığına hörmətlə yanaşır və həmişə alqışlanır.

Arzu Abdullayev uzun illərdir ki, Qəbələ rayon mədəniyyət evinin "Çinar" ansamblında fəaliyyət göstərir. O, ansamblla birlikdə tez-tez rayon əhalisinin qarşısında maraqlı proqramla çıxış edir. Qəbələdə elə bir mədəni tədbir keçirilməz ki, orada Arzunun qarmonunun səsi eşidilməsin. Onun özünün ən çox sevdiyi musiqi nömrələri xalq havaları, xalq rəqsləridir. Onun ifasında qədim havalarımız "Qazağı", "Vağzalı" "İnnabı", "Turacı", "Qaytağı", "Azərbaycan təranələri" olduqca gözəl və orijinal səslənir. Onun qarmonunun ürəyə yatımlı, lirik sədası altında böyüklü-kiçikli əl-ələ verib rəqs edirik. Bu qarmonun musiqisi neçə-neçə evə, ailəyə bol-bol sevinc, təbəssüm bəxş edir, adamlarda xoş əhval-ruhiyyə yaradır. İş yoldaşları, sənət dostları Arzunun səmimiliyindən, yoldaşlığından, musiqi bacarığından həmişə ağızdolusu danışırlar.

- Arzu gözəl çalğıçıdır. O, sənətinə əsl musiqiçi məsuliyyəti ilə, yaradıcılıqla yanaşır, öz üzərində daim çalışır, repertuarını yeni-yeni mahnı və musiqi əsərləri ilə zənginləşdirir. Əlbəttə, hər bir sənətin zirvəsinə çatmaq üçün çətin və mürəkkəb yol keçməlisən, sənətin sevincilə yanaşı onun əzabına da qatlaşmalısan. Arzu belə musiqiçidir. Onun barmaqları əsl qarmon üçün bəxş edilib. Bacarıqlı bir mədəniyyət işçisidir. Qazandığı müvəffəqiyyətlərlə kifayətlənmir, xoşbəxtliyi axtarışlarda görür. Bu axtarışlarda ona cansağlığı, yeni-yeni uğurlar arzulayırıq.

**E.MANAFOV,**
*Qəbələ rayon mədəniyyət evinin metodisti*